Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

EDF
SBIIYF

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
(SBİİYF)

# Sahibkarlığın Əsasları Təlimi

## Mövzu: «Sahibkarlıq nə deməkdir (sahibkar psixolojisi, davranışları, tərəddüdlər, risklər və s.)»

Təlimçi:

Sabit Bağırov

# Sahibkarlıq nədir?

Sahibkarlıq fəaliyyəti haqqında Qanuna əsasən (Maddə 1):

> Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, *malların istehsalından və (və ya) satışından*, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir.

**Qeyri rəsmi:** Sahibkarlıq qazanc əldə etmək məqsədini daşıyan və öz təşəbbüslərinə əsaslanan fəaliyyətdir.

# Sahibkarlıq fəaliyyətinə xas olanlar:

- Müəyyən məkanda və zamanda baş verir;
- Müəyyən motivlərlə həyata keçirilir;
- Müəyyən şərait və şərtlərlə əlaqəlidir;
- Müəyyən risklərlə müşayət olunur;
- Müəyyən resurslar tələb edir;

# Sahibkarlıq fəaliyyətinin əsas şərtləri

- Biznes fəaliyyəti növünün seçim azadlığı;
- Biznesin başlanması və yürüdülməsi azadlığı;
- Qanunun aliliyi;
- Mülkiyyət hüquqlarının təmin edilməsi;
- Bazarlara azad daxil olma;
- Rəqabətin ədalətliliyi;
- İşəgötürmə və işdən azadetmə azadlığı;
- İnformasiya azadlığı;
- Sair

# Sahibkarlıq yalnız sahibkarlar üçünmü faydalıdır?

Xeyr. Sahibkarlıq dövlət və cəmiyyət üçün də vacib amildir. Çünki:

- Yeni ideyalar gətirir;
- Texniki tərəqqiyə təkan verir;
- Yeni mallar istehsal edir və xidmətlər göstərir;
- Yeni iş yerləri açır;
- Yeni varidat yaradır;
- İstehlakçıların tələbatını ödəyir.

# Nəyə görə insan sahibkar olmaq qərarına gəlir?

Sahibkarlıqla məşğul olmaq qərarının səbəbləri:

- ✓ Özünü və ailəsinin maddi, mədəni və digər tələbatlarını təmin etmək;
- ✓ Daha yaxşı yaşamaq;
- ✓ Xeyriyyəçiliklə məşğul olmaq;
- ✓ Xobbiçiliklə əlaqədar az olmayan xərcləri qarşılamaq;
- ✓ Və sair

# Sahibkarlıqla bağlı amillər

1) Şəxsə bağlı amillər:

- həvəs, istək, tərəddüdlər;
- bilik və bacarıq;
- ailə bağlantıları, ənənə, adət və s.;
- şəxsi (ailədə) maliyyənin olması;
- xasiyyət, davranış;

2) Ölkədə sahibkarlıq mühitinə bağlı amillər:

- qanunvericiliyin təmin etdiyi imkanlar;
- dövlətin dəstəyi;
- kənar maliyyəyə əlçatanlıq;
- altyapı (infrastruktur);
- gərəkli işçi potensialı;

# TƏRƏDDÜDLƏR

Sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlər adətən aşağıdakı tərəddüdləri yaşayır:

- Hansı sahibkarlıq fəaliyyəti növü onun üçün uğurlu ola bilər?
- Pul tapa biləcəyəmmi?
- Hazırki qazanc mənbəyimi atsam, ailəmi necə təmin edərəm?
- Bacararammı?
- Ailəmdə problemlər yaranmaz ki?
- Yaşım ötməyib ki?
- Yaşım çatıbmı?
- Sağlamlığım imkan verəcəkmi?



# Sahibkarlıq fəaliyyətinə başlayan nələri nəzərə almalıdır

- Sabahdan Sizin üçün yeni həyat başlayır;
- Hər dəqiqə biznesiniz barədə düşünməli olacaqsınız;
- Ailə, istirahət və dostlarınız üçün vaxtınız azalacaq;
- Təxirə salmadan hər gün yeni problemlərlə qarşılaşacaq və onları həll etməli olacaqsınız;
- Xasiyyətinizi dəyişməli olacaqsınız;
- Sizə simpatik olmayan insanlarla da yaxşı münasibət qurmalı olacaqsınız;
- Rəqibləriniz meydana çıxacaq.

# Bəzi məsləhətlər

1. Nəyə maliksinizsə (bacarıq, qabilliyyət, pul, əlaqələr və s.) onlardan mütləq istifadə edin;
2. Seçdiyiniz sahibkarlıq sahəsində fəaliyyət göstərənlərin uğur və uğursuzluqlarını təhlil edin;
3. Müştərilər şəbəkənizi qurun və genişləndirin;
4. Xöş sifət, gülərüz olun. Tanışlar şəbəkənizi genişləndirin;
5. Məsləhətçiniz olarsa çox gözəl. Olmazsa dövlət qurumlarının qaynar xətlərindən istifadə edin;
6. Hər növ xərcinizdə hər qəpiyə qənaət edin;
7. Dəftər-qələmlə möhkəm dost olun.

# Özünüzü testdən keçirin

Aşağıdakı sualları özünüzə verin və əgər hamısına cavab "HƏ" olarsa, Sizin uğurlu sahibkar olmaq şansınız yüksəkdir:

- Son illərdəki məşğuliyyətinizin sahibkarlıqla hər hansı əlaqəsi varmı?
- Xobbinizin və hansısa bacarığınızın, əl qabiliyyətinizin gələcək sahibkarlıqla hər hansı əlaqəsi varmı?
- Ümumiyyətlə Siz fəal insansınızmı?
- Uğursuzluqları asanmı keçirirsiniz?
- Açıq və dürüst insanmısınız?
- Tanımadığınız şəxslə ünsiyyət qurmaq bacarığına maliksinizmi?
- Sülhməramlısınızmı?
- Analitik səriştəniz varmı? Problemlə rastlaşarkən onu həll etmək yollarını müəyyənləşdirə bilirsinizmi?
- Tacirlik bacarığına maliksinizmi?
- Sağlamlığınızdan tez-tez şikayət etmirsiniz ki?
- Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün təkidli ola bilirsinizmi?
- Fantaziya qabilliyətiniz varmı?
- Ailəniz Sizi dəstəkləyəcəkmi?